**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№366/6** **24 iyun 2024-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının 2024-cü il üzrə iş planının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının «Azərbaycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının yaradılması və tərkibinin təsdiq edilməsi barədə» 2023-cü il 14 dekabr tarixli 361/9 nömrəli qərarının icrasını təmin etmək məqsədilə Qadınlar Şurasının sədri, «L.B. Audit xidməti» MMC-nin direktor-auditoru Lamiyə Bayramova tərəfindən hazırlanmış Azərbaycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının 2024-cü il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Qadınlar Şurasının 2024-cü il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatası Qadınlar Şurasının sədrinə (L.Bayramova) tapşırılsın ki, Əsasnaməsindən irəli gələn vəzifələrin və 2024-cü il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin icrasını vaxtında və keyfiyyətlə təmin etsin, həmçinin fəaliyyəti barədə illik hesabatı hazırlayıb 2025-ci ilin yanvar ayının sonunadək Auditorlar Palatasına təqdim etsin.
3. Auditorlar Palatasının struktur bölmərinin rəhbərlərinə tapşırılsın ki, Auditorlar Palatası Qadınlar Şurasının 2024-cü il üzrə iş planında nəzərdə tutulmuş işlərin icrasında onlara dəstək göstərsinlər.
4. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəis müavini Firəngiz Axundova vəzifə dəyişikliyi ilə əlaqədar Qadınlar Şurasının üzvlüyündən çıxarılsın və onun yerinə Palatanın Katibə-kargüzarı Ləman Hüseynova daxil edilsin.
5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində Auditorlar Palatası Qadınlar Şurasının rəhbərliyinin və üzvlərinin fotoşəkilləri də əks olunmaqla onlar barədə məlumatların Palatanın internet səhifələrində yerləşdirilməsi təmin edilsin.
6. Bu qərarın və Auditorlar Palatası Qadınlar Şurasının 2024-cü il üzrə iş planının mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**